MÜASİR TƏHSİL SİSTEMİ QARŞIYA YENİ VƏZİFƏLƏR QOYUR

Afət Allahverdiyeva
Qubadlı Rayon Təhsil Şöbəsinin müdiri

Açar sözlər: *dərs, monitorinq, innovasiya, yeni təlim üsulları.*
Ключевые слова: *урок, мониторинг, инновация, новые учебные методы.*
Key words: *lesson, monitoring, innovation, new teaching techniques.*

Birləşmiş Millətlər Təşkilatı XXI əsri "təhsil əsri" adlandırmışdır. Çünki müasir dünyada hər bir ölkənin uğurlu gələcəyi həmin ölkədə təhsilin səviyyəsi ilə müəyyən olunur. Möhtərəm Prezidentimiz İlham Əliyev cənabları təhsilə yüksək qiymət verərək demişdir: "Təhsil Azərbaycanda davamlı inkişaf strategiyasının ən öncül istiqamətlərindən biridir." Təhsil sistemi müstəqil Azərbaycan vətəndaşının ümumi dəyərlərini bölüşdürən bir vətəndaş formalaşdırmalı, qloballaşan və müasir dünyada rəqabətli, peşəkar biliklərə malik bir insanı, bir məhsulu yetişdirməlidir. Bu vəzifələr ilk növbədə məktəbin üzərinə düşür. Çünki müasir məktəb-ailənin, cəmiyyətin və dövlətin maraqlarına uyğun olaraq, zəruri biliklərə, həyati bacarıqlara yiyələnən, əxlaqi-mənəvi dəyərlər zəminində tərbiyə alan vətəndaş yetişdirmək vəzifəsini keyfiyyətlə yerinə yetirməlidir.

Bunun üçün qarşıya müəyyən şərtlər daxilində tələb olunan çox mühüm vəzifələr qoyulmuşdur.

Qubadlı rayonu timsalında demək olar ki, əsas vəzifələrin yerinə yetirilməsi üçün mühüm şərtlərdən biri və həm də birincisi hər bir məktəbin iş şəraitinin əsaslı şəkildə yaxşılaşdırılmasıdır.

Dövlət başçısı cənab İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində respublika miqyasında yeni tikilmiş, əsaslı təmir edilmiş məktəb binalarının sayı durmadan artmaqdadır. Bunu rayonumuzun timsalında da görmək olar. Belə ki, cari ildə şagird kontingenti ildən-ilə güclənən Çaytumas məktəb-liseyinin binasına əlavə olaraq 6 sinif otağı, akt zalı tikilmiş, Çardaxlı tam orta məktəbi üçün əlavə 4 sinif otağı şagirdlərin istifadəsinə verilmişdir.

İkinci əsas məsələ, məktəbdə şagird kontingenti, onun artması və azalmasının diqqətdə saxlanılmasıdır.

Bu baxımdan 2012/2013-cü tədris ilində rayonun Xanlıq-3, Fərcan, Y.Mollu, Çaytumas, A.Mollu, Hal, Qaralar və Çardaxlı məktəblərində şagird artımı müşahidə edilmiş, Şəhər 1 nömrəli, Mahmudlu, Qəzyan və Mərdanlı məktəblərində isə şagird nisbəti sabit saxlanılmışdır. Bununla yanaşı bəzi məktəblərdə 1-7 nəfər daxilində şagird azalmaları olmuşdur ki, bu da şagirdin yaşadığı ailənin yaşayış yerini dəyişməsi ilə bağlıdır.

Ən əsas və başlıca məsələlərdən biri kimi məktəbə rəhbərlik bacarığı, məktəbdaxili intizamın gözlənilməsi də qarşıda duran vəzifələrin həlli üçün böyük əhəmiyyət kəsb edən məsələlərdəndir. Nə qədər müasir, zəngin maddi-texniki bazaya malik məktəb olsa da, əgər orada yüksək rəhbərlik bacarığına malik rəhbər və bunun müqabilində məktəbdaxili intizam yoxdursa, həmin məktəb heç vaxt əxlaqi-mənəvi dəyərlər zəminində tərbiyə alan vətəndaş yetişdirmək vəzifəsini yerinə yetirə bilməz. Rayonumuzda işinin öhdəsindən gələn məktəb rəhbərləri, güclü məktəbdaxili intizamı olan məktəblər

az deyildir. Belə məktəblərə Çaytumas məktəb-liseyini, Şəhər 1 və 2 nömrəli, Mahruzlu, Qəzyan, Xələc, Mahmudlu, Hal tam orta məktəblərini misal göstərmək olar.

Hər bir təhsil müəssisəsinin müvəffəqiyyətinin əsas və başlıca səbəblərindən biri də təhsil verənlərin keyfiyyətli təhsil vermə bacarığıdır. Bu əsas məsələ, təbii ki, müəllimlərin, yəni təhsil verənlərin səviyyəsini, onların keyfiyyətli təhsil vermələrini aşkarlayır. Bu da həqiqətdir ki, hər hansı məktəbdə peşəsinin vurğunu olan, öz ixtisasını gözəl bilən hətta bir müəllim varsa, o, sözsüz ki, məktəbin bütün şagirdlərini arxasınca aparacaqdır, şagirdlərin ixtisas seçimində özlərində inam yaradacaqdır. Təəssüflə qeyd etmək lazımdır ki, belə müəllimlər azlıq təşkil edir. Lakin bu gün rayon məktəblərində işinin öhdəsindən gələ bilən, peşəsinə vurğun olan, ixtisasını dərindən bilən, fədakar müəllimlərimiz az da olsa vardır. Belə müəllimləri aşkarlamaqda, təbii ki, keyfiyyət göstəricilərini açıqlayan fənn monitorinqlərinin rolu böyükdür. Həmişə olduğu kimi cari ildə 4-5-6 və 7-ci siniflər üzrə yalnız Sumqayıt şəhərində fəaliyyət göstərən məktəblərdə təhsil şöbəsi tərəfindən keçirilən monitorinqlər zamanı həmin məktəblərin keyfiyyət göstəriciləri müəyyən edilmişdir.

Məlum olmuşdur ki, Xələc, Mərdanlı, Mahruzlu, Mahmudlu və Hal məktəblərində keyfiyyət göstəricisi daha yüksək, şəhər 4 nömrəli məktəbində isə çox aşağıdır.

Müasir dövrün səciyyəvi xüsusiyyətlərindən biri də İKT-nin istisnasız olaraq hər bir fəaliyyət sahəsinə nüfuz etməsidir. Hazırda İKT-dən istifadə bacarıqlarına yiyələnmədən inkişafa nail olmaq mümkün deyildir. Möhtərəm Prezidentimizin 2013-cü ili İKT ili elan etməsi ilə bağlı sərəncamı da bu sahədəki çətinliklərin tədricən aradan qaldırılması məqsədi daşıyır. Bu isə məktəblərimizdə təhsil alan şagirdlərin İKT-nin imkanlarını hərtərəfli mənimsəmələrini zəruri edir. Belə bir dövrdə, əlbəttə, çox vacib məsələlərdən biri kimi rayon məktəblərinin kompyuterlərlə təminatı əsas vəzifə olaraq qarşıya qoyulmuş və bu istiqamətdə müəyyən işlər görülmüşdür. Hazırda şagirdlərin istifadəsində 316 ədəd kompyuter (hər 20 şagirdə 1 kompyuter), 9 ədəd noutbuk, 13 ədəd proyeksiya aparatı vardır. 30 məktəbdə kompyuter kabinetləri yaradılmışdır. Məktəblərdə çoxlu sayda müxtəlif fənlərdən elektron təlim materialları, eləcə də digər əyani vəsaitlər var. Amma məktəblərdə kompyuter kabinetlərinin yaradılması və digər vəsaitlərin verilməsi işin yalnız bir tərəfidir. Daha vacib iş, onlardan səmərəli istifadə etmək bacarığıdır. Təbii ki, əgər gözlənilən səviyyədə istifadə olunarsa, bu, təlimin keyfiyyətinə əsaslı təsir göstərər. Bu sahədə məktəb rəhbərlərinin üzərinə böyük məsuliyyət düşür. Ona görə də bütün imkanların səfərbər olunması, bu vacib işin yerinə yetirilməsinə çalışılması diqqət mərkəzində saxlanır. Etiraf etmək lazımdır ki, bu gün tədris prosesində hələ də bir çox müəllimlər əvvəlki ənənəvi təlim üsullarından istifadə edir, yeniliklərdən çəkinirlər. Amma zamanın tələbi budur ki, müasir müəllim çox çalışmalı, yaradıcı olmalıdır ki, kompyuter əsrində yaşayan, demək olar ki, hər cür texniki vəsaitdən baş çıxaran şagirdin diqqətini özünün istədiyi istiqamətə yönəldə bilsin.

Ümumi orta və tam orta təhsil kursları üzrə mərkəzləşdirilmiş buraxılış imtahanlarının keçirilməsi təhsilin keyfiyyət göstəricilərinin yaxşılaşdırılması baxımından olduqca əhəmiyyətlidir.

Bütün illərdə mərkəzləşdirilmiş buraxılış imtahanlarında rayonun ümumtəhsil məktəblərinin göstəriciləri 92-98 % təşkil etmişdir. 2012-2013-cü tədris ilinin yekun mərkəzləşdirilmiş buraxılış imtahanlarının nəticələrinə görə də 92% nəticə ilə rayon təhsili Sumqayıt və Bakı təhsilindən öndə

olmaqla Respublikada ən yaxşı nəticə göstərən rayon kimi qiymətləndirilmişdir. 2012/2013-cü tədris ili və eləcə də əvvəlki illərdə qeyri-kafi qiymət alan bütün məzunlara attestat, qeyri-kafi alan IX sinif şagirdlərinə isə şəhadətnamə verilməsi də rəğbətlə qarşılanmışdır.

Cari ildə rayon məktəblərini bitirən 339 nəfərdən 286 nəfəri (83%) ali məktəblərə sənəd vermişdir. Sənəd verənlərin 58%-i ali məktəblərə qəbul olunmuşdur. Onlardan 10 nəfəri 600-dən yuxarı nəticə göstərmişdir. Belə ki, Şəhər 3 nömrəli tam orta məktəbin şagirdi İmanov Elməddin 600 balla ADNA-ya, Qaralar kənd tam orta məktəbin şagirdi Mehdiyeva Gülnar 602, Dəmirçilər kənd tam orta məktəbin şagirdi Təhməzov İsa 667, Çaytumas kənd tam orta məktəbin şagirdi Atakişiyeva Şəfəq 607, A.Mollu kənd tam orta məktəbin şagirdi Dünyamalıyeva Nərmin 614 balla BDU-ya, Qaralar kənd tam orta məktəbin şagirdi Rzayeva Gülnar 618, Xanlıq tam orta məktəbin şagirdi Mehrəliyeva Xədicə 643, A.Mollu kənd tam orta məktəbin şagirdi Səmədova Sahibə 621 balla ADU-ya, Xanlıq 3 nömrəli tam orta məktəbin şagirdi Babayeva Xəyalə 627 balla Qafqaz Universitetinə, Qaralar kənd tam orta məktəbin şagirdi Nəcəfov Heydər 634 balla Ali Neft məktəbinə qəbul olunmuşlar.

Şagirdlərin dünyagörüşünün qabiliyyət və bacarığının formalaşmasında məktəbdənkənar və sinifdənxaric tədbirlər xüsusi rola malikdir. Şöbədə istedadlı şagirdlərlə aparılan işlərin yeni texnologiyalar əsasında qurulmasına diqqət artırılmış, bunun da nəticəsində fənn olimpiadalarının respublika mərhələsində 6 nəfər iştirakçı olmuşdur.

Hər il olduğu kimi, bu il də bütün məktəb kollektivləri il daxilində tarixi və əlamətdar günlər münasibətilə diqqətçəkən tədbirlər keçirməklə məktəb şagird kollektivinin məktəbdən və sinifdəkənar tədbirlərdə fəallıqlarını formalaşdırmış, ayrı-ayrı şagirdlərin istedad və bacarıqlarının aşkar edilməsinə şərait yaratmışlar. Xocahan, Çaytumas, A.Mollu, Mahruzlu, Mahmudlu, Xələc məktəblərində bütün tarixi günlər, bayramlar, həmçinin görkəmli ictimai-siyasi xadim, yazıçı və şairlərin yubileylərinin keçirilməsi istiqamətində öz əlamətdarlığı ilə daha yaddaqalan tədbirlər, insan hüquqları, narkomaniyaya qarşı mübarizə ilə bağlı və digər əhəmiyyətli mövzularda dəyirmi masalar keçirilmişdir. Vətənpərvərlik tərbiyəsinin aşılanması istiqamətində aparılan məqsədyönlü işlərin nəticəsidir ki, "Şahin" hərbi idman oyununda şəhər 2 nömrəli tam orta məktəbin komandası artıq 3-cü ildir şimal bölgəsi üzrə zona yarışında iştirak edən 11 rayon içərisində I yerə layiq görülərək respublika birinciliyinə vəsiqə alırlar. Cari ildə də respublikada öncül yerlərdən birinə sahib olmuşlar. Bu tədbirlərin keçirilməsində hərbi komissarlıq, hüquq mühafizə orqanları və rayon gənclər idman şöbəsinin əməkdaşlarının da yaxından köməkliyi qeyd olunmalıdır.

Ümummilli lider H.Əliyevin anadan olmasının 90-cı ildönümü münasibəti ilə silsilə tədbirlər həyata keçirilmişdir. Xocahan məktəbinin şagirdi "Heydər Əliyev məktəblilərin gözü ilə" Respublika inşa yazı müsabiqəsində iştirak edərək uğur qazanmışdır. Ümumtəhsil məktəbləri arasında təşkil olunmuş "Bilik yarışı", "Şən startlar" idman yarışı çox yaddaqalan, güclü rəqabətə səbəb olan bir yarışma olmuşdur. Eyni zamanda məktəb şagird və müəllimləri arasında idman, şahmat üzrə müxtəlif yarışların keçirilməsi də artıq ənənəyə çevrilmişdir.

Təhsil şöbəsinin tabeçiliyində olan məktəbdənkənar müəssisələrin fəaliyyəti də nəticəsiz olmamışdır. Dəfələrlə zona yarışlarında müvəffəqiyyətlə iştirak edən müdavimlər həmişə diplom və "Fəxri fərman"lara layiq görülmüşlər.

Məktəblərin pedaqoji proseslərdə əldə etdikləri nəticələrdə maddi-texniki bazanın, eləcə də yeni dərs ilinə hazırlığın təşkili xüsusi əhəmiyyət kəsb edən məsələlərdəndir. Yuxarıda qeyd edildiyi kimi, bütün ümumtəhsil məktəblərində cari, Çaytumas məktəbliseyində isə əsaslı təmir işləri aparılmışdır.

Yerli büdcə vəsaiti hesabına, cəmi 164553 manat dəyərində məktəb rəhbərlərinin sifarişi əsasında tələb olunan inventar, avadanlıq, zəif imkanlı məktəblilər üçün 342 ədəd məktəbli dəsti alınıb məktəblərə verilmişdir. Hər il olduğu kimi, bu il də Heydər Əliyev fondu tərəfindən verilmiş 922 ədəd məktəbli çantası bütün ləvazimatları ilə birgə, məktəblərə çatdırılmışdır. Təhsil Nazirliyi bütün məktəb şagirdlərini pulsuz olaraq 12000 dərsliklə təmin etmişdir. Eyni zamanda cari ilin yanvar və fevral aylarında bütün məktəb rəhbərləri nazirliyin tələbi əsasında "Mədəd" təşkilatı tərəfindən İKT, 5-ci və 6-cı siniflərdə dərs deyəcək fənn müəllimləri isə iyul və avqust aylarında kurikulum üzrə xüsusi kurslardan keçmişlər. Artıq neçə illər olduğu kimi bu il də bütün məktəblərdə məktəb rəhbərlərinin təşəbbüsü ilə pulsuz olaraq 1-ci sinfə qəbul olunacaq uşaqlarla hazırlıq kursları təşkil edilmişdir.

Göründüyü kimi, ötən dərs ilində qarşıya qoyulmuş vəzifələrin həlli istiqamətində xeyli işlər görülmüşdür. Bu işlər Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təhsilə xüsusi diqqət və qayğısı, Təhsil Nazirliyinin güclü tələbkarlığı və nəzarəti sayəsində yerinə yetirilmişdir.

Təhsil naziri cənab M.Cabbarovun son dövrlər təhsil sahəsində atdığı humanist addımlar da göstərir ki, bu sahədə ciddi yeniliklərin başlanğıcı qoyulmuşdur, çox yaxın gələcəkdə təhsilimizdə böyük uğurlar qazanılacaqdır. Burada ölkə Prezidentinin daha bir fikrini yada salmaq yerinə düşər: "Oxumaq hamıya lazımdır. Azərbaycanda təhsilin səviyyəsi artır və biz buna çox sevinirik. Biz istəyirik ki, gənc nəsil bilikli, savadlı olsun, eyni zamanda vətənpərvərlik ruhunda tərbiyə alsın. Gələcəkdə həm özlərini təmin etsinlər, cəmiyyətdə özlərinin yerini tutsunlar, eyni zamanda ölkəmizin ümumi inkişafına öz töhfələrini versinlər." Bu müddəalara əməli cavab olaraq Qubadlı rayonunun təhsil işçiləri daha məsuliyyətlə işləməklə qarşıda duran vəzifələrin layiqincə yerinə yetirilməsi üçün səylə çalışacaqlar.

Rəyçi: dos. Ə.Abbasov

А.Аллахвердиева

Современная образовательная система и новые задачи

Резюме

В статье говорится об удачах в области образования в последние годы. Она касается анализа проблем, ожидающихся в будущем. Также говорится о роли сотрудничества между учителем и учениками.

A.Allahverdiyeva

Modern education system demands new duties

Summary

In this article it is spoken about achievements gained in the recent years. Upcoming challenges are mentioned. It is spoken about the role of teacher-student cooperation in achievement of success.